# AZƏRBAYCAN ƏDƏBİYYATINDA TƏNQİDİ REALİZM EPOXASI HAQQINDA İSA HƏBİBBƏYLİNİN ELMİ-NƏZƏRİ FİKİRLƏRİ

## *İ.Həbibbəylinin M.F.Axundzadənin irsinə, “nazimi-ustad” məsələsinə müasir ədəbiyyatşünas baxışları*



*Gülxani PƏNAH*

*(Əvvəli ötən saylarımızda)*

Məsələn: bir şəxs bir kitab yazdığı zaman başqa bir şəxs onun əsərinin mətləbləri xüsusunda KRİTİKA yazır, bu şərtlə ki, onun yazısında müəllif haqqında ədəbsiz və könül incidən bir söz belə olmasın. Hər nə deyilsə, incəliklə deyilsin. Bu işi “kritika”, fransız istilahı ilə “kritik” adlandırırlar. Müəllif ona cavab verir. Ondan sonra üçüncü bir şəxs meydana çıxır, ya müəllifin cavabını təsdiq edir, ya da kritika yazanın fikrini üstün tutur. Bu işin nəticəsi budur ki, get-gedə nəzm və nəsr, inşa və təsnif (əsər yazmaq - İ.H.) bütün Avropa xalqlarının dilində sələvət (səlistlik) qazanır və mümkün qədər cəmi nöqsanlardan təmizlənir. Müəlliflər və şairlər öz vəzifələri və təklifləri haqqında tamam xəbərdarlıq alırlar”.

İ.Həbibbəyli Mirzə Fətəli Axundzadənin ədəbi tənqid haqqındakı bu fikirlərində böyük mətləblərə toxunduğunu bildirir.

XIX əsrdə Mirzə Fətəli Axundzadənin yazdığı “Tənqid risaləsi”, “Kritika. Yüksək İranın “Millət” qəzeti münşisinə”, “Mirzə Ağanın pyesləri haqqında kritika”, “Nəzm və nəsr haqqında”, “Mollayi-Ruminin və onun təsnifinin babında” əsərlərini “Azərbaycan ədəbi tənqidinin möhkəm təməlləri və nadir nümunələri” kimi yüksək dəyərləndirir.

Onu milli ədəbi tənqidin də, tənqidin nəzəriyyəsinin də banisi kimi araşdırır və ədəbi tənqidin nəzəriyyəsinə dair görüşlərini Mirzə Fətəli Axundzadənin ədəbiyyat nəzəriyyəçiliyinin üzvi tərkib hissəsi bilir.

Azərbaycanda professional ədəbi tənqidin əsasını qoyması, ədəbiyat nəzəriyyəçisi kimi dərin nəzəri təfəkkürü tənqidçi Mirzə Fətəli Axundzadənin ədəbiyyata dair fikir və mülahizələrinin daha da əsaslı olmasına kömək etdiyini, bu keyfiyyətlərinin onun yazıçı və tənqidçi kimi yalnız üstünlüyü sayıla biləcəyini qeyd edir: “Ona görə də ədəbi tənqidin yaradıcısı Mirzə Fətəli Axundzadənin ədəbiyyat nəzəriyyəsinə dair görüşlərindən də söz açılmasına ehtiyac vardır. Bu, ayrıca bir tədqiqatın mövzusu ola bilən xüsusi bir məsələdir. Nəzərə almaq lazımdır ki, Mirzə Fətəli Axundzadənin ədəbi-tənqidi əsərlərində ədəbiyyat nəzəriyyəsinə dair kifayət qədər qiymətli və əhəmiyyətli fikirlər vardır”.

Onun ədəbiyyat nəzəriyyəsi haqqındakı görüşləri İ.Həbibbəylinin fikrincə, “geniş, əhatəli və sistemlidir”. Bu mövzudakı mülahizələri “əsərlərində keçici deyil, ardıcıl və davamlı xarakter daşıyır”. Elmi-ədəbi-nəzəri fikirləri “sadəcə ədəbiyyat barəsində deyilmiş ümumi qiymətləndirmələrdən, “yazıçı sözü”ndən yox, sözün elmi mənasında ədəbi yaradıcılığın qanunauyğunluqlarını ifadə edən düşünülmüş nəzəri müddəalardan ibarətdir”, ədəbiyyat nəzəriyyəsinə dair təlimi “bu sənətə bələd olan savadlı bir ədəbiyyatçının elmi dünyagörüşünün ifadəsidir”.

Ədiblərə verdiyi nəsihətləri, ədəbiyyat nəzəriyyəsinə dair bütün fikir və mülahizələrinin ədəbi prosesin təhlili zamanı ehtiyac olduğu məqamlarda gündəmə gətirdiyini bildirən İ.Həbibbəyli müşahidə etdiyi əsas cəhəti (Mirzə Fətəli Axundzadə daha çox ədəbi prosesi, yaxud ayrılıqda bir yazıçının əsərlərini və ya konkret olaraq bir əsərini təhlil edərkən fikirlərini daha dərindən əsaslandırmaq üçün ədəbiyyat nəzəriyyəsinə müraciət etmişdir) görür. Nümunə gətirir: “Məsələn: “Yüksək İranın “Millət” qəzetinin münşisinə Kritika” məqaləsində “Şəmsüş-şüəra” ləqəbi ilə yazan Sirus adlı “şairin” “Millət” qəzetində dərc olunmuş “bir qəsidəsi ilə bir qəzəlinin” təhlili zamanı tənqidi qənaətlərində haqlı olduğunu göstərmək, öz sözləri ilə desək, “iddianı sübut etmək” məqsədilə məzmunla formanın vəhdəti haqqındakı baxışlarını nəzərə çarpdırmışdır. Yaxud “Nəzm və nəsr” məqaləsində kimin əsl şair, kimin isə “nazim” - nəzm yazan olduğunu bildirmək, müəyyə etmək üçün ədəbiyyat nəzəriyyəsinin müddəalarından çıxış etmişdir. Bundan başqa, Mirzə Fətəli Axundzadənin ədəbiyyat nəzəriyyəsinə dair təlimi həm də yeni ədəbiyyat uğrunda mübarizədə maarifləndirici xarakter daşımışdır. Nəticə etibarilə böyük mütəfəkkirin ədəbiyyat nəzəriyyəsi görüşləri realist ədəbiyyatın prinsiplərinin formalaşdırılmasından və müdafiəsindən ibarətdir”.

Mirzə Fətəli Axundzadənin ədəbiyyat nəzəriyyəsi görüşlərini zaman özü meydana çıxardığını, orta əsrlərin lirikasından və didaktikasından, nəsihətçilikdən realizmə keçid ədəbi düşüncədə də yeniləşmə tələb etdiyini, eyni zamanda, Azərbaycanın çar Rusiyası tərəfindən işğalı ilə ictimai-siyasi mühitin dəyişməsi də ədəbiyyatın, ziyalıların qarşısına yeni vəzifələr gətirdiyini, işğaldan narazı xaqlın müqavimətinin zəiflədilməsi, mülkiyyət sahibi olan xan-bəy sinfinin müflisləşdirilməsi, eyni zamanda “dünyəvi məktəblərin açılması, milli teatrın və mətbuatın meydana gəlməsi geniş mənada zamanı və ədəbiyyatı təzədən qavrayıb dəyərləndirmək və istiqamətləndirmək tələbini” meydana çıxardığını bildirən İ.Həbibbəyli Mirzə Fətəli Axundzadənin “ədəbi tənqidi fikirləri kimi, ədəbiyyat nəzəriyyəsinə dair görüşləri də bütün bu ictimai-siyasi və maarifçi ədəbi proseslərin yaratdığı zərurətdən doğmuşdur”- deyir. Yeni ədəbiyyatın yaranması və inkişafı üçün yeni janrlarda - komediya və povest janrlarında nadir əsərlər yazmaqla işini bitmiş hesab etməyən, həm də dövrün məqbul sayıla biləcək ədəbiyyat siyasətinin mahiyyətini aydınlaşdırmış, nümunələrini göstərmiş, inkişaf yolunu müəyyən etmiş M.F.Axundzadənin bu sahədə rolunu yüksək qiymətləndirir: “Bütün bunlar ədəbiyyat nəzəriyyəsiz deklarativ xarakter daşıya bilər, havada qalan pafosa çevrilərdi. Mahiyyəti və inkişafı bir yerdə ümumiləşdirilmiş şəkildə dərk etdirməkdə və təşviq etməkdə ədəbiyyat nəzəriyyəsi böyük üstünlüklərə malikdir. Mirzə Fətəli Axundzadənin ədəbiyyat nəzəriyyəsi görüşləri həmin manifestin ifadəsidir”.

İranın “Millət” qəzeti münşisinə ünvanlanmış “Kritika” adlı məqaləsində ədəbiyyat nəzəriyyəsinin əsas qanunlarından olan məzmunla formanın vəhdəti haqqında Mirzə Fətəli Axundzadənin mükəmməl bir tərifi öz əksini (“İki şey şeirin əsas şərtlərindəndir: məzmun gözəlliyi və ifadə gözəlliyi. Məzmun gözəlliyi olub, ifadə gözəlliyinə malik olmayan nəzm (Mollayi Ruminin məsnəvisi kimi) məqbul nəzmdir, amma şeiriyyatında nöqsan vardır. İfadə gözəlliyinə malik olub, məzmun gözəlliyindən məhrum olan mənzumə tehranlı Qaaninin şeirləri kimi zəif və kəsalət artırıcı nəzmdir, amma yenə şeir növündəndir, yenə də hünərdir. Həm məzmun gözəlliyinə, həm də ifadə gözəlliyinə malik olan nəzm (Firdovsinin “Şahnamə”si, Nizaminin “Xəmsə”si və Hafizin “Divan”ı kimi) nəşə artırıcı və həyəcanlandırıcı olub, hər kəs tərəfindən bəyənilir”) tapdığını söyləyir.

Mirzə Fətəli Axundzadənin bu fikirlərini də (“belə nəzm sahiblərini peyğəmbərlərə bərabər tutmaq olar. Çünki onlar bəşər növünün fövqündə olub, filosofanə xəyal və ilham sahibləridir”) təhlil edən İ.Həbibbəylinin fikrincə, “Mirzə Fətəli Axundzadə özü də “Kritika” məqaləsində məzmunla formanın vəhdəti haqqında “peyğəmbərcəsinə” bir tərif, düstur kəşf etmişdir. Gətirilmiş misalların, nümunə kimi göstərilən əsərlərin də bu dərəcədə dəqiq müəyyən olunması Mirzə Fətəli Axundzadənin geniş mütaliə dairəsini nəzərə çarpdırmaqla bərabər, həm də nəzəriyyə ilə ədəbi təcrübəni əlaqəli şəkildə klassik ədəbiyyatla müqayisə əsasında, şərh, aydınlaşdırmaq üsulu ilə yeni ədəbiyyatın vəzifələrini vəhdətdə ifadə etmək istedadını da meydana qoyur. Nəticə etibarilə “həm məzmun gözəlliyinə, həm də ifadə gözəlliyinə malik olan” əsərlərin yaradılmasına çağırış üçün Mirzə Fətəli Axundzadənin formulundan üstün bir yol düşünmək çətindir. Bu prinsip həm də XIX əsrdə forma gözəlliyinə üstünlük verən, yaxud da həyati məzmun daşımayan nəzirəçilik ədəbiyyatına qarşı mübarizə üçün də dərkolunmuş bir gerçəkliyi meydana qoymaq və təkzibedilməz faktla irəli sürülmüş tezislərə inam qazandırmaq baxımından da əsaslı idi. Bu, sadəcə tərif olmayıb, həqiqətən də “bəşər növünün fövqündə olan” dərin mütəffəkir düşüncəsini ifadə edən nəzəriyyə idi”.

Mövcud Şərq-Qərb ədəbiyyat nəzəriyyəsi kitablarında məzmunla formanın vəhdəti haqqında verilmiş təriflərin və şərhlərin heç birinin Mirzə Fətəli Axundzadənin “düsturundan” fərqli bir cizgi göstərmədiyini görür. XIX əsrdə, 1871-ci ildə hələ ədəbiyyat nəzəriyyəsinə dair hər hansı konkret bir kitabın ortada olmadığı bir dövrdə belə bir mükəmməl təlimi yaratmasını mütəfəkkirin “təkcə dramaturgiyada, realist nəsrdə, ədəbi tənqiddə, əlifba islahatında, ictimai-fəlsəfi fikrin inkişafında deyil, ədəbiyyat nəzəriyyəsi sahəsində də böyük dühə olduğunu göstərən sübutlardan” biri olduğu qənaətindədir. Onun həmin “Kritika” məqaləsində özünü “Şəmsüş-şüəra” (“Şairlər günəşi”) kimi qələmə verən “Sürüş” təxəllüslü şairin qəsidəsinin əruz vəzni baxımından misra-misra təhlilini də tam ədəbiyyat nəzəriyyəsi əhvalatı adlandırır.

Mirzə Fətəli Axundzadənin “Mirzə Ağanın pyesləri haqqında kritika” məqaləsindəki ədəbiyyat nəzəriyyəsi məsələlərini “kritika»dan - ədəbi tənqiddən az görmür. “Məqalədəki “Sərgüzəşti Şahqulu Mirzə” başdan-ayağa pisdir. Onu yandırın. Təfəkkür sahibinə bu kimi şeylər yazmaq layiq deyildir” - hökmü sərrast ədəbi tənqidin hökmüdür. Eyni zamanda Mirzə Ağa Təbrizinin pyeslərinin nöq-sanlarını göstərən və əsl dramaturgiyanın mahiyyətini açan səkkiz bəndlik müla-hizələrinin demək olar ki, hamısında ədəbiyyat nəzəriyyəsinin müddəalarını görür:

**«Birincisi:** Drama sənətinin şərtləri tələb edir ki, məclis üzvlərinin hər birinin işi onun danışıqlarından tamam diqqətlə seçilsin. Məsələn: məclis üzvünün hərəkətini göstərmək istədikdə onun adını sətrin üstündə ayrıca yazmaq lazım deyil. Gərək bu ad adamın işinə aid olan sətrə yapışıq yazılsın. Məclis üzvünün mükaliməsi yazılarkən onun adı sətrin yuxarısında ayrıca yazılmalıdır.

**İkincisi:** Pyesdə sözü, ya işi olan hər bir iştirakçının adı əsərin başlanğıcında yazılmalıdır. Məsələn: Saranın anası Şərəfnisənin və habelə Fəraməz bəyin adı başlanğıcda yazılmalıdır ki, Tuti xanımın kim olduğu məlum olsun...

**Üçüncüsü:** Drama sənətində qayda budur ki, əgər mümkünsə, bütün iştirakçılar... tamaşanın sonunda bir yerə yığışıb sözlərini sona çatdırmalı və pyesi bitirməlidirlər...

**Dördüncüsü:** Drama sənətinin məqsədi insanların əxlaqını yaxşılaşdırmaq, oxucu və qulaq asanları ibrətləndirməkdir...

**Beşincisi:** ...Müasirlər haqqında bu kimi şeyləri yazmaq təhlükəlidir. Bəs necə olsun? ...Əlacı asandır. Hadisənin əmələgəlmə tarixini dövlətində qaydaqanun olmayan Şah Sultan Hüseyn Səfəvinin əsrinə atınız...

Bir də hər yerdə və hər zaman teatr məclisinin vəziyyəti şərh olunmalıdır. Məsələn: Əşrəf xan istəyir şəxsi-əvvəlin divanxanasına yola düşsün. Bu halda divanxananın quruluşunu təsvir etməlisiniz ki, drama sənəti ustadları, yəni aktyorlar ki, teatrda hadisənin tamaşasını göstərirlər - sizin təsvirinizə uyğun olaraq teatr səhnəsinin quruluşunda dəyişiklik yaradıb qabaqca Əşrəf xanın mənzili olan quruluşu bir anda dəyişib şəxsi - əvvəlin divanxanası şəklinə salsınlar...

**Altıncısı:** Drama sənəti şərtlərinə görə, əxlaqsızlıq əhvalatı yolverilməz olduğu üçün onun şəbihini teatra gətirmək olmaz. Amma belə şeyləri oxumağın o qədər də eybi yoxdur... «Sərgüzəşti Kövkəb» drama fənni şəklində yazılmış olsa da, onun əvvəlində teatr tamaşasına qoyulmaq üçün deyil, oxumaq üçün yazıldığına işarət edin...

**Yeddincisi**: ...Başlıca səhv və drama fənni əsaslarına bilmərrə uyğun olmayan cəhət budur ki, Hacı Pirqulu Ağahaşıma deyir: - Qızım Saranı mən özüm alacağam və heç kəsə verməyəcəyəm.

Eyvah!.. Belə sözləri teatr səhnəsində ata öz qızı haqqında deyə bilərmi? Mütləq dəyişdirin...

**Səkkizinci:** “Gülüstan” və “Zinətülməcalis” dövrü keçmişdir. Bu gün bu cür əsərlər millətin işinə yaramır. Bu gün millət üçün faydalı və oxucuların zövqü üçün rəğbətli olan əsər - drama və romandır...”

İ.Həbibbəylinin dediyi kimi, “Mirzə Ağa xan Təbrizinin pyesləri haqqında kritika» əsəri İranda yaşayıb, yazdığı dram əsərlərini məsləhət almaq üçün Tiflisə göndərmiş bir dramaturqa Mirzə Fətəli Axundzadənin verdiyi tövsiyələrdə ədəbi tənqidlə ədəbiyyat nəzəriyyəsi bir-birini tamamlayan qoşa elmi yanaşmalardır. Təqdim olunan səkkiz bəndlik tövsiyələrdə dram sənətinin poetikası və estetikası, geniş mənada teatr mədəniyyətinin nəzəri mahiyyəti öz əksini tapmışdır”.

*(Davamı var)*